

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 147 (21.557)

10 avqust 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## İlin ilk 6 ayında quruculuq işləri bütün sahələri əhatə edib

***Ordubad rayonunda 2016-cı ilin birinci yarısında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 29129,1 min manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 3,8 faiz artaraq 27872,6 min manat təşkil edib.***

Ordubad Rayon İcra Hakimiyyətindən bildiriblər ki, bəhs olunan dövrdə quruculuq, təmir-bərpa işləri bütün sahələri əhatə edib. Ordubad şəhərində Texniki Peşə və Sürücülük Məktəb kompleksinin istifadəyə verilməsi burada təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradıb. Həmin dövrdə Ordubad dəmir yol vağzalının yeni binasının və "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binasının tikintisi davam etdirilir. Ordubad şəhərində M.F.Axundov küçəsində 36 mənzilli yaşayış binasında əsaslı təmir işləri aparılır. Baş Dizə kəndində 156 şagird yerlik yeni məktəb binası, kənd və xidmət mərkəzləri inşa olunur, kənddaxili yollar təmir edilir, kommunikasiya xətləri yenilənir. Ordubad şəhərində içməli su və kanalizasiya sisteminin çəkilişi davam etdirilir.



İlin birinci yarısında Ordubad Rayon Yol Təmir-İstismar İdarəsi də öz üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə səy göstərib. Yol inşaatçıları tərəfindən Ordubad şəhərdaxili, Dəstə-Dırnıs, Ordubad-Nüsnüs, Aza-Biləv, Ordubad-Naxçıvan avtomobil yollarında təmir işləri aparılıb.

Ötən müddətdə əhalinin suya olan tələbatının ödənilməsi də diqqət mərkəzində saxlanılıb. Rayon Suvarma Sistemləri İdarəsinin balansında olan nasos stansiyalarında əsaslı və cari təmir işləri görülüb. Rayonda 15,3 kilometr uzunluğunda beton kanal, 44,6 kilometr uzunluğunda ara arxları lildən təmizlənib. Ordubad şəhərində, Düylün, Vənənd, Aza, Üstüpü kəndlərində 8,8 kilometr içməli su xətləri təmir edilib, Dəstə kəndinə 0,3 kilometr, Parağa kəndinə isə 2,1 kilometr yeni su xətləri çəkilib. Dəstə kəndi üçün 180 metr, Düylün kəndi üçün 100 metr, Parağa kəndi üçün 70 metr yeni kaptaj tikilib, Ordubad şəhəri, Aza və Düylün kəndlərində 280 metr kaptaj təmir edilib. Aza, Dəstə, Xanağa və Vənənd kəndlərində subartezian quyularının təmiri başa çatdırılıb.

4,5 kilometr uzunluğunda olan qədim "Zəvvar arxı" bərpa edilib, Ordubad çayının suyu artırılıb, Nüsnüs kəndindən dağların ətəyi ilə 3,4 kilometr uzunluğunda yeni kanal salınaraq Aşağı Əylis kəndində istifadəsiz qalmış 150 hektardan çox torpaq sahəsinin suvarılması üçün şərait yaradılıb.

Tikinti-quruculuq tədbirlərindən rabitə sahəsinə də pay düşüb. Bu dövrdə Gilançay-Biləv, Gənzə, Üstüpü kəndlərinə, ümumilikdə, 12986 metr fiber-optik xətt çəkilib. Kotam kəndində 96 nömrəlik yeni ATS quraşdırılaraq istifadəyə verilib.

Rayon Elektrik Şəbəkəsi də ilin birinci yarısını uğurla başa vurub. Şəbəkə tərəfindən rayonda müxtəlif gücə malik 9 ədəd transformator yarımstansiyasında cari, 10-da isə əsaslı təmir işləri aparılıb. İstifadəyə verilən yeni obyektlərə və köhnəlmiş xətlərin əvəzinə 5222 metr uzunluğunda yeni məftil çəkilib. 10 kilovoltluq hava xəttində 27 ədəd, 0,4 kilovoltluq hava xəttində isə 117 ədəd dayaq basdırılıb.

Ötən müddətdə rayonda aparılan quruculuq tədbirləri ilə əlaqədar Qaz İstismarı İdarəsi tərəfindən 4680 metr qaz xətti yenisi ilə əvəz olunub, magistral və daxili qaz kəmərlərinə texniki baxış keçirilib və 4986 metr qaz xəttində təmir-bərpa işləri aparılıb. İstismar müddətini başa vurmuş 115 ədəd qaz sayğacı yenilənib. 28 mənzilə isə yeni qaz xətti çəkilib.

Tikinti-quruculuq, təmir-bərpa işləri ilin ikinci yarısında da sürətlə davam etdirilir.

Muxtar MƏMMƏDOV

***Müasir dövrdə enerji təhlükəsizliyinin təmin olunması istənilən ölkənin və ya regionun iqtisadi uğuru kimi qiymətləndirilir. Çünki iqtisadiyyatın inkişafı enerji təhlükəsizliyinin təmin olunması, enerji təhlükəsizliyinin təminatı isə iqtisadiyyatın inkişafı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin inkişaf konsepsiyasında da bu iki xətt strateji istiqamət kimi qarşıya qoyulub.***

## Naxçıvanda elektrik enerjisinə olan tələbatın 70 faizi alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir



Qeyd edək ki, ötən əsrin 90-cı illərində məlum ictimai-siyasi hadisələr Azərbaycan iqtisadiyyatının tənəzzülə uğraması ilə bərabər, enerji təsərrüfatının iflic vəziyyətə düşməsinə də səbəb olmuşdu. Ölkəmizdə bu sahənin, demək olar ki, iflasa uğraması Naxçıvan Muxtar Respublikasında daha acınacaqlı şəkildə özünü göstərib. Blokada şəraitində yaşamağa məcbur edilmiş Naxçıvanda enerji böhranı yalnız ulu öndər Heydər Əliyevin bu qədim Azərbaycan diyarında yaşayıb fəaliyyət göstərdiyi dövrdə aradan qaldırılıb. Həmin dövrdə idxal olunan elektrik enerjisi muxtar respublikanın düşdüyü enerji blokadasının yarılmasında əhəmiyyətli rol oynayıb. O dövrdən başlayaraq muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılıb, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısının alınması və enerji təchizatının etibarlılığının yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülüb. Ölkə başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qaz ilə işləmə rejiminə keçirilib. Sərəncama uyğun olaraq, həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası və Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə yeni su elektrik stansiyası istismara verilib. 2010-cu ildə 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının, 2014-cü ildə isə Arpaçay Su Anbarı üzərində 20,5 və 1,4 meqavat gücündə 2 su elektrik stansiyasının tikilib istifadəyə verilməsi Naxçıvanın enerji təhlükəsizliyini təmin edib.

Bütün bunların nəticəsidir ki, bir zamanlar yalnız idxal hesabına elektrik enerjisinə olan tələbatı qismən ödəyən Naxçıvanda bu gün daxili istehsal hesabına ən ucqar dağ kəndi belə, fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunur, muxtar respublikamız enerji ixrac edir.

Qeyd edək ki, Naxçıvanın əlverişli iqlimi və coğrafi şəraiti alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Xüsusilə ekoloji təmiz enerji mənbələrindən istifadə olunaraq muxtar respublikamızın təbii sərvətlərinin iqtisadi dövriyyəyə cəlb olunması bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi dəyərləndirilə bilər. Son illər bu sahədə həyata keçirilmiş mühüm layihələrdən biri muxtar respublikada regionun ən böyük Günəş elektrik stansiyasının istifadəyə verilməsidir. Babək rayonunun Xalxal kəndi yaxınlığında 35 hektar ərazidə tikilmiş stansiyanın gücü 20 meqavatdır. Hazırda bu stansiya muxtar respublikanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir.

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin həcmində alternativ və bərpa olunan enerji mənbələrinin payını müəyyən etmək üçün statistik rəqəmlərə nəzər yetirək. Belə ki, 2016-cı ilin birinci yarısının yekunlarına görə bu dövrdə muxtar respublikanın elektrik stansiyalarında 199 969 000 kilovat-saat elektrik enerjisi, o cümlədən su elektrik stansiyalarında 121 489 000 kilovat-saat, istilik elektrik stansiyalarında 63 427 000 kilovat-saat, Günəş elektrik stansiyasında 15 053 000 kilovat-saat elektrik enerjisi istehsal edilərək elektrik şəbəkələrinə ötürülüb. Su elektrik stansiyalarında ümumi elektrik enerjisi istehsalının 60,75 faizi, istilik elektrik stansiyalarında 31,72 faizi, Günəş elektrik stansiyasında isə 7,52 faizi qədər elektrik enerjisi istehsal edilib.

*Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının 70 faizə yaxını alternativ və bərpa olunan enerji mənbələri hesabına əldə edilib ki, bu da çox nadir göstərici hesab edilir.*

Səbuhi HƏSƏNOV

## Muxtar respublikamızın xarici iqtisadi əlaqələri genişlənir

***Hərtərəfli inkişafın göstəricilərindən biri dünya ölkələri ilə yaradılmış iqtisadi-mədəni əlaqələrdir. Tarix boyu xalqların iqtisadi və elmi-mədəni nailiyyətləri bölüşdürülərək dövlətlər arasında ticarət əlaqələri yaradılmış, beynəlxalq iqtisadi əlaqələrin ilk təməli atılmışdır. Bu gün də xarici iqtisadi əlaqələrin səviyyəsi ölkələrin iqtisadi gücünün və beynəlxalq aləmdəki nüfuzunun əsas göstəricilərindən biri hesab olunur.***

Xarici iqtisadi əlaqələr cəmiyyətə nə qazandırır? İlk olaraq onu qeyd edək ki, bu, ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq inteqrasiya yolunda əsas şərtdir. Belə ki, dünya ölkələri öz əhalisinin ümumi rifah halını yüksəltmək üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum yararlanmağa çalışır, bunun üçün xarici iqtisadi əlaqələrə girirlər. Bu gün qarşılıqlı mənfəət əsasında elmi-texniki, iqtisadi, mədəni, turizm, ticarət, nəqliyyat, rabitə və sair sahələrdəki idxal-ixrac əməliyyatları beynəlxalq bazarın canlandırılmasına və eyni zamanda yeni həyat tərzinin formalaşmasına səbəb olur ki, bu da cəmiyyətin ümumi inkişafına öz töhfəsini verir.

Xarici iqtisadi əlaqələr çox mühüm humanitar və siyasi əhəmiyyətə də malikdir. Belə ki, ölkələr arasında yalnız sıx siyasi dialoq olduqda birbaşa iqtisadi əlaqələr yaranır. Ona görə də xarici iqtisadi əlaqələr dostluq əlaqələrinin məhsulu olduğu kimi, həm də onun möhkəmləndirilməsinin əsas səbəblərindən biridir. Bu gün beynəlxalq aləmdə bir-biri ilə sıx dost və qardaşlıq əlaqələri olan ölkələrin xarici ticarət dövriyyəsindəki qabarıq rəqəmlər də bunu təsdiq edir. Bu həm də həmin ölkələrin beynəlxalq aləmdəki nüfuzunun bir göstəricisidir. Ona görə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən xarici iqtisadi əlaqələr məhz bu istiqamətdə formalaşaraq onların dünya bazarındakı yerinin möhkəmləndirilməsinə yönəldilir.

Xarici iqtisadi əlaqələr eyni zamanda müstəqil iqtisadi siyasətə aparan yoldur. Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanın ixrac potensialının artması ilə xarici ticarət dövriyyəsində artıq müsbət saldo yaranmağa başlamışdır. İndi Azərbaycan əksər dünya ölkələri ilə fəal iqtisadi əməkdaşlıq aparmaq gücü qazanmış, ixrac və idxal əməliyyatlarının həcmi artmış, onların struktur tərkibi ölkəmizin xeyrinə dəyişilmişdir. Xarici iqtisadi siyasət xəttini özü müəyyən edən ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqe tutması, xammal ixracından hazır məhsul ixracına keçid bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir.

Ötən dövrdə xarici iqtisadi əlaqələr sahəsində Naxçıvan Muxtar Respublikası özünəməxsus yol keçmişdir. Belə ki, Azərbaycanın əsas hissəsindən ayrı düşən muxtar respublikanın iki qonşu ölkə – Türkiyə və İran vasitəsilə birbaşa olaraq dünyaya çıxış imkanları vardır. Bu, həmin ölkələrlə aparılan ikitərəfli ticarət iqtisadi əməkdaşlığı da genişləndirmişdir. İndi Naxçıvan Muxtar Respublikası Avropa, Amerika və Asiyanın bir çox ölkəsi ilə iqtisadi əlaqələr qurmuşdur. Bu əlaqələrin məzmununa gəldikdə, əvvəlki illərdən fərqli olaraq əhalinin vacib ehtiyaclarının ödənilməsi məqsədilə mənfi saldo ilə nəticələnən idxala üstünlük verilirdisə, müasir mənzərə əvvəlkinə görə tamamilə fərqlidir. Belə ki, 2016-cı ilin yanvar-iyun aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 207 milyon 98 min ABŞ dollarına çatmış, bir il öncəyə nisbətdə ixracın həcmi 2,1 faiz artaraq 188 milyon 250 min 600 ABŞ dolları həcmində olmuşdur. Aparılan ixrac-idxal əməliyyatları nəticəsində 169 milyon 403 min 200 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Xarici ticarət əməliyyatlarının keyfiyyət göstəriciləri də bizim xeyrimizə dəyişilməkdədir. İndi hər gün müasir şəraitli gömrük-keçid məntəqələrindən Naxçıvana texnoloji avadanlıqlar, lüks avtomobillər, bahalı məişət əşyaları daşınır və Naxçıvandan dünyanın bir sıra ölkələrinə müxtəlif növdə hazır ixrac məhsulları aparılır. Naxçıvan Beynəlxalq Hava Limanından və muxtar respublikadakı digər gömrük-keçid məntəqələrindən keçərək xaricdən regionumuza səfər edən əcnəbi turistlərin xərcləmələri isə "gözəgörünməz ixrac" kimi regiona daxil olan xarici valyutanın həcmində mühüm yer tutur.

Naxçıvanın malik olduğu iqtisadi potensial, yeniləşən infrastruktur iş dünyasının diyarımıza olan marağını artırmışdır. Naxçıvanlı sahibkarlar indi artıq Türkiyə və İranla yanaşı, Avropa ölkələrinin, Amerika, Yaponiya, Çin, Rusiya kimi iri ölkələrin sahibkarlarının iştirakı ilə keçirilən iqtisadi forumlarda fəal iştirak edirlər. Dünyanın iş adamları Naxçıvanda aparılan iri sənaye, infrastruktur, turizm layihələrinə qoşulmağa can atırlar. Naxçıvanın tarixi İpək Yolu üzərindəki mühüm mövqeyi, regionun tranzit imkanları və ölkəmizdə sahibkarlığa verilən dövlət zəmanəti bütün fəaliyyət növləri kimi, xarici iqtisadi əlaqələrə də öz təsirini göstərmişdir. Bütün bunlar isə genişlənən xarici iqtisadi əlaqələr kimi muxtar respublikamızın uğurudur.

Əli CABBAROV

## Su təsərrüfatı və meliorasiya sahəsində görülən işlər kənd təsərrüfatının inkişafında əhəmiyyətli rol oynayır

*Ölkəmizdə meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərindən başlansa da, onun genişmiqyaslı inkişafına ümummilli liderimiz Heydər Əliyevin respublika rəhbərliyinə gəldiyi 1969-cu ildən başlanılıb. O vaxtdan etibarən respublika iqtisadiyyatının bütün sahələrinin, həmçinin kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul edilib. Bu qərarlarda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etmək məqsədilə kompleks meliorasiya proqramları hazırlanıb. Bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri – Araz çayı üzərində Araz Su Anbarı və su elektrik stansiyası, Naxçıvan Muxtar Respublikasında 6 min hektar sahəni suvaran "Arpaçay" nasos stansiyası və Naxçıvan suvarma sistemi inşa olunub. Muxtar respublikada Arpaçay üzərində həcmi 150 milyon kubmetr olan Arpaçay və Naxçıvan çayından qidalanan, həcmi 12,7 milyon kubmetr olan Sirab su anbarları tikilib.*

Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin sonunda meliorasiya və su təsərrüfatının inkişafı, demək olar ki, tamamilə dayandı. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı isə meliorasiya və su təsərrüfatı sahəsini məhv olmaqdan xilas etdi, mövcud meliorasiya potensialından daha səmərəli istifadə yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ulu öndərin göstərişləri əsasında respublikaya ayrılan xarici investisiyalar, ilk növbədə, bu sahənin inkişafına yönəldildi. Ölkənin bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar aqrar sahə ilə paralel olaraq, meliorasiya və su təsərrüfatında da islahatların həyata keçirilməsinə başlanıldı, onların normativ-hüquqi bazası yaradıldı.

Bu gün dahi şəxsiyyətin yolu uğurla davam etdirilərək ölkəmizdə, eləcə də muxtar respublikamızda su təsərrüfatı və meliorasiya sahəsinin inkişafına xüsusi diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu sahədə həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayaraq demişdir: ***"Son illər ölkəmizdə, eləcə də muxtar respublikada meliorasiya və su təsərrüfatı sisteminin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yeni hidrotexniki qurğuların tikilməsi, rentabelli suvarma şəbəkələrinin qurulması torpaqların əkin dövriyyəsinə qatılmasına və məhsul istehsalının artmasına səbəb olmuşdur".***

Qeyd edək ki, Babək rayonunda da bu istiqamətdə böyük işlər görülür. Rayonun iqtisadiyyatının əsasını əkinçilik, bağçılıq və heyvandarlıq təşkil edir. Hər il torpaq mülkiyyətçiləri əkin sahələrində tonlarla taxıl, meyvə, tərəvəz, kartof və sair məhsullar yetişdirirlər. Və əlbəttə ki, bu məhsulların əldə edilməsində meliorativ tədbirlərin vaxtında həyata keçirilməsi çox vacibdir.

Həllivacib məsələlər sırasında 2005-ci ilin dekabr ayında istifadəyə verilən, rayonun suvarma suyunun əsasını təşkil edən Heydər Əliyev Su Anbarı əkinçilərə əsl töhfə olub. Məlumat üçün bildirək ki, yüz milyon kubmetr su tutumu olan bu anbarın tikintisinə hələ sovet dönəmində, 1982-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdı. Su anbarı muxtar respublikada 16 min 830 hektar sahənin suvarılmasına imkan verəcəkdi ki, bunun da 6 min 919 hektarı yeni əkin dövriyyəsinə qatılan torpaqlar olacaqdı. Lakin ötən əsrin 80-ci illərinin sonlarında inşaat işləri yarımçıq qaldı. Ulu öndərimizin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu nəhəng obyektin tikintisi reallaşdırıldı.

Anbar istifadəyə verildikdən sonra Şahbuz, Culfa və Babək rayonlarının suvarma suyuna olan tələbatı xeyli ödənilib. Bu anbarın sayəsində, ümumilikdə, 6919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib ki, bunun da 4364 hektarı Babək rayonunun payına düşür. Su anbarından çəkilən kanallar hesabına Babək rayonunun 13869 hektar torpaq sahəsi suvarılır.



Əlbəttə, bu, son deyil. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən, suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilir. 2015-ci ilin sonunda daha bir layihə reallaşdırılıb. Babək rayonunda Vayxır sol sahil kanalı üzərində yeni qapalı suvarma və drenaj şəbəkəsi istismara verilib. Böyük iqtisadi əhəmiyyətə malik olan bu layihənin reallaşdırılması nəticəsində Culfa rayonunun Bənəniyar kəndinin 1050 hektar torpaq sahəsi ilə yanaşı, Babək rayonunun ən böyük yaşayış məntəqəsi olan Nehrəm kəndinin 1170 hektar sahəsi daha su sarıdan əziyyət çəkməyəcək.

Ümumilikdə, 2220 hektar torpaq sahəsində müasir suvarma sisteminin qurulması artıq bu ərazilərə suyun itkisiz çatdırılmasını, yeraltı suların ərazilərdən uzaqlaşdırılmasını, əvvəllər suvarılması mümkün olmayan sahələrə də su verilməsini təmin edib, eləcə də şoranlaşmanın qarşısının alınmasına, bol məhsul istehsalına şərait yaradıb.

Hazırda isə Kültəpə kəndinin əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə yeni bir layihə həyata keçirilir. Belə ki, 3 min 60 metr uzunluğunda boru xəttinin çəkilişinə başlanıb. Babək Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi tikintiyə aprel ayının sonunda başlayıb. Mənbəyini Heydər Əliyev Su Anbarından gələn sol sahil kanalından götürən xəttin çəkilişində 720 millimetrlik dəmir borulardan istifadə olunub. Əsas xəttin çəkilişi tamamlanıb, melioratorlar hazırda kanalın qurtaracağında suöldürücü hovuzun inşasını aparırlar. Çünki kanalın mənbəyi 30 metr hündürlükdədir və suyun sürəti hovuzda azaldılaraq köməkçi kanallara buraxılacaq.

Rayon Suvarma Sistemləri İdarəsinin mühəndisi Yavər Məmmədovdan öyrəndik ki, hovuzun eni və uzunluğu 4 metr, dərinliyi 3 metrdir. Hovuzun çıxışından hər tərəfə 100 metr beton kanal salınıb. Ümumilikdə, 200 metrlik beton kanala 3 yerdə suburaxıcı qapı qoyulacaq ki, bu qapılardan su aşağı, sağ və sola paylanacaq. Beton kanala düzülən plitələrin aralarına temperatur şovları quraşdırılıb, hazırda inşaatçılar betonlama işi aparırlar. Beton kanaldan sonra su 1 kilometrlik torpaq kanala buraxılaraq əkin sahələrinin daha geniş şəkildə suvarılmasını təmin edəcək. Sözügedən bu torpaq kanala el arasında "Türyan" kanalı deyilir və kanal yenidən qazılaraq bərpa olunur.

Ərazidə qaynar iş gedir. Üç texnikanın gücündən istifadə olunur. Buldozer torpağı hamarlayır, ekskavator qazır və kanalın divarlarına mailillik verilərək bərkidir. Öyrənirik ki, torpaq kanala 10 yerdə əraziləri su ilə tam təmin etmək üçün qapı qoyulacaq. Su itkisinin qarşısını almaq üçün tikilən kanalın suyundan Kültəpə kəndi ilə yanaşı, Məmmədrza Dizə, Qaraqala kənd sakinləri də istifadə edəcəklər.

İnşaatçılardan Süleyman Həsənov, Dadaş Tarverdiyev, Səftər Həbibov və Rövşən Qasımov bildirdilər ki, su həyatdır, güclü iqtisadiyyatdır, təknəmizin bol çörəyidir. Odur ki, dövlət tərəfindən bu sahəyə böyük diqqət göstərilir. Və sudan qənaətlə istifadə edilməlidir. Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi də öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışaraq suvarma suyuna olan tələbatı ödəmək üçün bütün imkanlardan istifadə edir.

İnanırıq ki, bundan sonra sözügedən kəndlərin torpaq mülkiyyətçiləri daha məhsuldar işləyərək torpağın hər qarışından səmərəli istifadə edəcəklər.

**Hafizə ƏLİYEVA**

## Torpağa düşmədi havayı bir dən...

***Daha bir taxıl tədarükü mövsümü başa çatdı. Payızdan bu isti yay günlərinədək çəkilən zəhmətin şahidi olduq. Muxtar respublika üzrə 31579 hektar taxıl əkini sahəsindən 94117 ton məhsul götürüldü ki, bu da 29,8 sentner məhsuldarlıq deməkdir. Qazanılan bu yüksək nəticənin təməlində dayanan başlıca amil taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə hərtərəfli qayğı göstərilməsidir. Belə qayğını onlar cari ildə də görüblər. Bunu statistik rəqəmlər də təsdiq edir.***

Belə ki, muxtar respublikanın taxıl istehsalçılarına yanacaq və sürtkü yağlarına görə 2016-cı il fevral ayında 1 milyon 521 min manat, aprel ayında isə 5124 nəfər sahibkara 2 milyon 392 min manat dəyərində 4905 tondan artıq azot gübrəsi verilib və taxıl zəmilərinə səpilib. Bundan əlavə, cari ilin may ayında 3854 nəfər buğda istehsalçısına becərdikləri 26792 hektar buğda sahəsi üçün 1 milyon 72 min manat, yazlıq əkinlər üçün isə iyul ayında 1877 nəfər sahibkara 26926 hektar sahə üçün 1 milyon 346 min manat dəyərində yardımlar verilib.

Bu dövrdə meliorasiya və irriqasiya tədbirləri davam etdirilib. Məlumat üçün bildirək ki, muxtar respublika ərazisində 303,52 milyon kubmetr sututumuna malik olan sututarlara 278 milyon kubmetr su ehtiyatı toplanılıb. Regionda ikinci suvarma mənbəyi kimi istifadə edilən 102 nasos stansiyasının 100-ü və 887 subartezian quyusunun 820-si istismar olunmaqdadır. 359 subartezian quyusunda təmir işi həyata keçirilib. 311 subartezian quyusu əsaslı təmir olunub, 12 subartezian quyusuna yeni nasos quraşdırılıb. Uzun müddət işləməyən 3 subartezian quyusu bərpa edilib, 2 subartezian quyusu qazılıb.

Texnika ilə təminat da diqqət mərkəzində saxlanılıb. Taxıl tədarükü kampaniyasında yüzdən artıq kombaynın və digər texnikaların gücündən istifadə edilib. Bu sıraya taxılı qısa və uzun müddətə saxlaya bilən anbarları, yeni tikilən və təmir olunan un dəyirmanlarını, çörəkbişirmə sahələrini əlavə etsək, taxılçılığa marağı artıran amillərin nə qədər çox olduğunu görərik.

Bir neçə gündür ki, bu sahə ilə məşğul olanlarla yanaşı, elə muxtar respublikanın digər sakinləri də sevinc içərisindədirlər. Bu sevincdən, təbii ki, ən çox pay illər əvvəl çörəklə imtahana çəkilənlərə düşüb. Çünki gələn mövsümədək öz taxılımızdan hazırlanan çörək süfrələrimizi bəzəyəcək.

Bu ərəfədə muxtar respublikada taxılçılıqla məşğul olan bir neçə torpaq mülkiyyətçisi ilə həmsöhbət olduq. Onların fikirlərini öyrəndik. İlk olaraq Şərur rayonunun Xanlıqlar kənd sakini Musa Salmanovun söhbətini oxuculara təqdim etmək istərdim:

– Torpaqlarımız taxılçılıq üçün nə qədər əlverişli olsa da, bir neçə il bizə gözdağı olan həmin qiymətli sərvətə baxa-baxa qalmışdıq. Sovetdən qalma texnika dağıdılırdı, su təsərrüfatı özbaşına buraxılmışdı, toxum yox idi. Əl işdən soyumuşdu... Çörək mağazalarının qarşısında dayanan növbələr insanları bezdirmişdi. Süni qiymət artımı da bir tərəfdən. O günləri Ulu Tanrı heç düşmənə də göstərməsin. Nə isə... Haqq-ədalət öz yerini tapdı, zaman hər şeyi yoluna qoydu. Bu gün mən də sevinirəm ki, taxıl tədarükü vaxtında başa çatdırıldı. Əvvəlcədən dövlətimizin həyata keçirdiyi tədbirlər bu məqamda xüsusi vurğulanmalıdır. Kombayna, digər texnikalara, yanacağa olan tələbat vaxtında ödənildi. Yəqin ki, yaxın günlərdə şum qaldırılmasına başlayarıq. Taxıl 2 yay görməlidir. Onda məhsuldarlıq da yüksək olur. Bunu bir neçə dəfə özüm də sınaqdan çıxarmışam. Neçə il əvvəl buna imkan olmurdu. O vaxt muxtar respublikada yeni texnikaların gətirilməsinə təzəcə başlanılmışdı. İndi, maşallah, hansı texnikadan istəsən, varımızdır.

Məlumat üçün bildirək ki, Şərurda cari ildə 7637 hektar taxıl zəmisindən 24117 ton məhsul tədarük edilib. Bu da hər hektardan orta hesabla 31,6 sentner məhsuldarlıq deməkdir. Bölgənin Püsyan, Xanlıqlar, Çomaxtur, Düdəngə, Danyeri, Oğlanqala kəndlərində məhsuldarlıq daha yüksək olub.

Rayonda fəaliyyət göstərən "Aqrotexservis" Səhmdar Cəmiyyətinin sədri Aqil Məmmədov deyir ki, 95 hektar sahədən məhsul tədarük ediblər. Yığım dövrü heç bir çətinliklə üzləşməyiblər. Özlərinə məxsus olan texnikalarla rayonun digər taxılçılarına da kömək ediblər. Çalışıblar ki, elin varı optimal müddətdə tədarük olunsun, necə deyərlər, torpağa düşməsin havayı bir dən.

Muxtar respublika üzrə ən yüksək məhsuldarlığın (32,4 sentner) qeydə alındığı Sədərək rayonu cari ildə də muxtar respublika iqtisadiyyatına



öz töhfəsini verib. Bu sərhəd bölgəsində 1947 hektar sahədən 6301 ton məhsul götürülüb.

Sədərək kənd sakini Səməd Əliyev deyir ki, torpağa tər töküb ondan zər götürmək olar. Çörək isə ondan da qiymətlidir. Sədərəklilər də bu həqiqəti dərindən dərk edirlər. Hərtərəfli qayğı ilə əhatə olunan torpaq mülkiyyətçiləri rayonda həyata keçirilən meliorasiya tədbirlərindən, muxtar respublikada yaradılan toxumçuluq təsərrüfatlarının fəaliyyətindən razılıq edir, aqrar sahənin, xüsusilə də taxılçılığın inkişafına yüksək önəm verirlər.

Sədərəklilər qazanılan nəticəni son hədd hesab etmirlər.

Cari ildə daha çox məhsul Babək rayonunda istehsal edilib. Bölgənin taxılçıları 9167 hektar sahədən 28587 ton məhsula sahib olublar. Rayonun Nehrəm, Cəhri, Zeynəddin, Şıxmahmud, Sirab, Yarımca kəndlərində daha çox taxıl əkilib.

Cəhri kənd sakinləri Nicat Qurbanov 42 hektar, Sənan Novruzov 70 hektar, Nehrəm kənd sakinləri Cəmşid Həsənov 40 hektar, Asəf Məmmədov 25 hektar, Yarımca kənd sakini Arif Səfərov 50 hektar sahədən məhsul toplayıblar. İl uğurlu gəlib, torpaq mülkiyyətçiləri əkin sahələrinə aqrotexniki qaydada qulluq ediblər. Arif Səfərov deyir ki, taxıl tədarükü üçün Babək rayonunda 28 kombayn işlək vəziyyətə gətirilmişdi. Bu da imkan verdi ki, minbir zəhmətlə hasilə gətirilən məhsul itkisiz toplanılsın.

Məlumat üçün bildirək ki, muxtar respublikanın digər rayonlarının göstəriciləri də ürəkaçandır. Belə ki, Ordubad rayonunda 1949 hektar sahədən 5290 ton, Culfa rayonunda 4466 hektar sahədən 12197 ton, Kəngərli rayonunda 3965 hektar sahədən 10782 ton, Şahbuz rayonunda 1337 hektardan 3835 ton, Naxçıvan şəhərinin tabeliyində olan kəndlərdə əkilmiş 1111 hektar sahədən 3008 ton taxıl tədarük edilib.

* * *

*Qarşıda taxılçıları daha bir mühüm kampaniya gözləyir: optimal müddətdə şum qaldırılması, 2017-ci ilin bol məhsulu üçün əkin kampaniyasına nail olmaq. Taxılçılarımız əmindirlər ki, bu işləri də vaxtında və keyfiyyətlə görə biləcəklər. Çünki muxtar respublikada bunun üçün hərtərəfli şərait yaradılıb.*

**İşiniz avand olsun!**

**Muxtar MƏMMƏDOV**

*Etiraf edək ki, çoxumuz ali təhsil almaq uğrunda mübarizə aparırıq. Düzdür, ali təhsil hər şeydən vacibdir. Amma unutmayaq ki, hər oxuyan da Molla Pənah olmaz. Bu gün yaşadığımız cəmiyyətdə işini yaxşı bilən dülgər, bənna, dərzi və başqa peşə sahiblərinə ehtiyacımız var. Ümumiyyətlə, bütün dövrlərdə yaxşı sənətkara həmişə ehtiyac duyulub. Elə sənətkarlar olub ki, onlar işləri ilə ad qazanıb, bir ali təhsillinin Vətəninə verə bilmədiyi xeyri verib. Bəli, necə deyərlər, hər işin öz ustası vardır.*

# Hər işin öz ustası olmalıdır



Sevindirici haldır ki, muxtar respublikamızda aparılan təhsil islahatlarının tərkib hissəsi olan texniki-peşə təhsilinin yeniləşdirilməsi sahəsində son illər böyük işlər görülməkdədir. Söz yox ki, müxtəlif fəaliyyət sahələri üçün yeni texnologiyalara yiyələnmiş kadrların hazırlanması dinamik inkişafa təsir göstərən həlledici amillərdən biridir. Texniki-peşə təhsili ümumi təhsil sisteminin əsas istiqamətlərindən biri olmaqla cəmiyyətin sosial-mədəni və iqtisadi inkişafında fərdlərin iştirakını təmin edir, onların ətraf mühitə təsir imkanlarını artırır, insanları yeni biliklərə yiyələnməyə istiqamətləndirir. Bu gün peşə təhsili sahəsində fəaliyyət göstərən müəssisələr, sadəcə olaraq, sənətkarlar və ustalar hazırlamaqla öz işini bitmiş hesab etmir, daha yüksək bilik və bacarığa malik ixtisaslı mütəxəssis hazırlığını həyata keçirirlər. Neçə illər öncəyə nəzər salsaq, görərik ki, o dövrdə cəmiyyətdə texniki-peşə təhsilinə maraq xeyli zəifləmişdi, bu məktəblərə zəif oxuyan, savadsız uşaqları göndərirdilər. Ancaq son illərdə peşə təhsilinə bu münasibət dəyişməyə başladı, aparılan təbliğat və maarifləndirmə işləri öz müsbət nəticəsini verdi.

Həyata keçirilən tədbirlər sırasında 2009-cu il aprelin 7-də ixtisaslı işçilərin hazırlanması üzrə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Naxçıvan Regional Peşə Tədris Mərkəzinin istifadəyə verilməsi peşə hazırlığının inkişafına göstərilən dövlət qayğısının əyani ifadəsinə çevrildi. Mərkəzin açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxış edərək demişdir ki, mərkəz sovet dövründə olan texniki-peşə məktəblərindən tamamilə fərqlənir. O dövrdə peşə məktəbləri həm orta təhsil, həm ixtisas versə də, istənilən keyfiyyətə nail olunmurdu. Şagirdlərin əksəriyyəti öz ixtisaslarını öyrənmədən məktəbi başa vururdular. Ona görə ki, eyni zamanda həm orta təhsil vermək, həm də peşə öyrənmək çətinliklər yaradırdı və ixtisaslı müəllimlərin də olmaması, bəlkə də, tədrisin düzgün qurulmaması o dövrdə peşə sahəsində hazırlanan işçilərin tam ixtisas ala bilməmələri ilə nəticələnirdi. Ancaq burada tam ixtisas öyrədiləcək, yəni müdavimlər müxtəlif sahələr üzrə qarışıq formada yox, ayrı-ayrı ixtisaslar üzrə 3 ay müddətində 10-24 nəfərlik qruplar halında tam ixtisasa yiyələnəcəklər.

6 ildir, fəaliyyət göstərən mərkəz qarşısına qoyulan vəzifələri layiqincə yerinə yetirərək bu gün nəinki Naxçıvanda, hətta Azərbaycanda tanınmış peşə məktəblərindən birinə çevrilib. İndiyə qədər çoxlu sayda peşə ixtisası üzrə kursların təşkil olunduğu mərkəzə muxtar respublikanın bütün bölgələrindən müdavimlər cəlb olunub. Mərkəzdəki elektron lövhə, sürətli internet, kompüter sinifləri vasitəsilə müdavimlər peşə təhsilinin müasir tələblərini öyrənir, bilik və vərdişlərini zənginləşdirirlər. Ümumilikdə, Naxçıvan Regional Peşə Tədris Mərkəzi fəaliyyətə başladığı gündən 126-ya yaxın kurs üzrə 1747-dən çox vətəndaşa müvafiq peşə təhsili verib. Hazırda mərkəzdə məşğələlər davam etdirilir. Bu təhsil ocağında qadın bərbəri, bərbər, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, traktorçu-maşinist, qazanxana maşinisti, aşpaz köməkçisi, ağac üzərində oyma, ofisiant, elektrik montyoru ixtisasları tədris edilir. Bütün sinif otaqları ayrı-ayrı ixtisaslara uyğun əyani vasitələrlə təchiz olunub. Mərkəzin direktoru Mövlud İsmayılov dedi ki, buraya, əsasən, rayon (şəhər) məşğulluq mərkəzlərində işaxtaran kimi qeydiyyatda olan vətəndaşlar cəlb edilir. Bundan başqa, bəzi təşkilatlar onlara ehtiyac duyulan ixtisaslı kadrların hazırlanması üçün sifariş verirlər.

Sinif otaqlarında məşğələlərin gedişi ilə tanış olduq, müəllimlərlə görüşüb söhbət etdik. Tədris korpusu ilə ilk tanışlığımız traktorçu-maşinist kursundan başladı. Burada müəllim Valeh Mehdiyev 10 nəfər müdavimə kurs keçirdi. Öyrəndik ki, müdavimlər traktorçu-maşinist üzrə nəzəriyyəni tam mənimsədikdən sonra istehsalat təcrübəsində iştirak edəcəklər.

Naxçıvan şəhərinə uzaq olan rayon və kəndlərdən gəlmiş müdavimlər üçün mərkəzdə rahat yataqxana şəraiti yaradılıb. Burada müdavimlər üçün istirahət otağı və kitabxana da fəaliyyət göstərir. Şahbuz rayonundan olan Surxay Quliyev yataqxanada onlar üçün yaradılan şəraitdən xeyli razılıq etdi. Dedi ki, burada müdavimlər üçün əsl ev rahatlığı yaradılıb. O və yoldaşları çalışırlar ki, qurulub-yaradılanların qayğısına qalsınlar. Çünki bu şəraitdən onlardan sonra oxumağa gələn müdavimlər də istifadə edəcəklər.

Emalatxanalarda peşə hazırlığının həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Binanın ikinci mərtəbəsində 6 sinif otağı, müəllimlər otağı, kompüter sinfi, istirahət otağı və 44 çarpayılıq 11 yataq otağı var. Kompüter sinfində 9 ədəd müasir kompüter avadanlıqları quraşdırılıb.

Mərkəzdə bərbər və dərzi hazırlayan kurslarda da tədrisin yüksək səviyyədə aparıldığının şahidi olduq. Bunun üçün fənn kabinələri və emalatxanalar elektron lövhə, əyani vəsaitlər, geyim dəstləri və digər materiallarla ən yüksək səviyyədə təchiz edilib. Məktəbin müəllimi Pəri Həsənova dedi ki, siniflərin əyani vəsaitlərlə zəngin olması keçilən dərslərin praktik olaraq daha yaxşı mənimsənilməsinə, bacarıqlı mütəxəssislərin hazırlanmasına imkan verir.

Mərkəzə sağlamlıq imkanları məhdud olan vətəndaşlar da cəlb olunublar. Onlardan Anar Quliyev bir neçə gündən sonra kursu başa vuracaq. İşə başlayacağına görə sevinclidir. Anarın valideyni Oruc Quliyev dedi ki, övladlarımızın belə təhsil ocaqlarında müxtəlif peşələrə yiyələnmələri üçün yaradılan şərait muxtar respublikada gənclərə və yeniyetmələrə, nəticə etibarilə, gələcəyimizə qayğının ifadəsidir. Gənclərimiz bunu dərindən dərk etməli, layiqli mütəxəssis kimi yetişərək həyatımızın müxtəlif sahələrində öz sözlərini deməlidirlər.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumlar bu il istifadəyə verilən yaradıcılıq və istehsalat binasında müxtəlif əl işləri hazırlayırlar. Mərkəzin müəllimləri burada məhkumlara kurs keçir. Bu günlərdə qazanxana maşinisti, kompüter, daş üzərində oyma kurslarında bir neçə məhkum kursu başa vurub.

Mərkəzi bitirənlərlə də əlaqə saxladıq. Culfa rayonundan olan Qaşqay Cəfərov dedi:

– Milax, Teyvaz və Qazançı kəndləri üzrə qaz çilingəri kimi fəaliyyət göstərirəm. Elə bilirdim ki, peşəm üzrə hər şeyi bilirəm. Sonra Rayon Qaz İstismarı İdarəsinin xətti ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində kursa cəlb olundum. Burada 3 aya yaxın kurs keçdim. Kursda iştirak edəndən sonra gördüm ki, bilmədiyim şeylər də çoxdur. Hər bir peşə sahibi bu kurslarda iştirak etməlidir. Onlar ixtisaslara nə qədər yaxşı yiyələnsə, sabah o sahələrdə bir o qədər yaxşı fəaliyyət göstərəcəklər və gördükləri işin də nəticəsi, keyfiyyəti olacaqdır.

Qeyd edim ki, mərkəzə Bakı şəhərindən ixtisaslı mütəxəssislər də cəlb olunur. Elə qəzetimizin fotoqraf əməkdaşları da mərkəzdə Bakıdan dəvət edilmiş fotoqrafın istirakı ilə keçirilən kurslarda iştirak ediblər. Həmin kurslarda iştirak edən işaxtaran vətəndaş kimi qeydiyyatda olan İlqar Quliyev redaksiyamızda işlə təmin olunub.

Onu da qeyd edim ki, bu gün belə tədris ocaqlarının fəaliyyət göstərməsi son illərdə ayrı-ayrı sahələr üzrə bədbəxt hadisələrin minimuma endirilməsinə də təsir edib. Çünki bəzən işçilərin peşə hazırlığının aşağı səviyyədə olması bədbəxt hadisələrin yaranmasına gətirib çıxarır. Buna görə ayrı-ayrı nazirlik, komitə və təşkilatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə mərkəzdə siniflərin hazırlanmasına, müəllimlərin peşə hazırlığının yüksəldilməsinə, onların digər yerlərə təcrübə keçməyə göndərilməsinə qayğı göstərirlər. Unutmaq olmaz ki, bu vətəndaşlarımız, ilk növbədə, Azərbaycan vətəndaşlarıdır, ikincisi isə onlar ölkəmizin iqtisadiyyatının inkişafında iştirak edirlər.

*Bəli, bu gün muxtar respublikada yeni sahələr qurulur, müxtəlif texnologiyalar və avadanlıqlardan istifadə edilir. Onları idarə etmək üçün isə ixtisaslı işçilər lazımdır. Heç şübhə yoxdur ki, mərkəzin kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, ixtisaslı işçilərin yüksək səviyyədə hazırlanması üçün əlindən gələni əsirgəməyəcəkdir.*

✍ **Sara ƏZİMOVA**

## Kəngərli rayonunda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil edilib



*Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Kəngərli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun istedadlı qadınlarının əl işlərindən ibarət sərgi-satışın açılışı olub.*

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək muxtar respublikanın hər yerində olduğu kimi, Kəngərli rayonunda da qadınlara göstərilən dövlət qayğısından danışıblar. Çıxışlarda qeyd olunub ki, Kəngərli rayonunda yerli özünüidarəetmə orqanlarına 5 qadın üzv seçilib, 1 qadın rayon İcra Hakimiyyəti başçısının müavini təyin edilib. Rayonda fəaliyyət göstərən təhsil, mədəniyyət və səhiyyə müəssisələrində çalışan qadınların sayı artıb, onların dövlət qulluğunda, hüquq-mühafizə orqanlarında təmsilçiliyi genişlənib.

Vurğulanıb ki, yaradılan şərait nəticəsində muxtar respublikada istedadlı qadınların sayı ildən-ilə artır. Onların əl işlərindən ibarət sərgilərin təşkili isə ənənə halını alıb. Bu gün Kəngərli rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsində məqsəd rayon üzrə qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaq, yüz illərdir, ailələrimizdə qorunub saxlanılan mənəvi irsimizi, zəngin dəyərə malik həyat tərzimizi yaşatmaqdır.

İstedadlı qadınlardan Arzu Əsgərova çıxış edərək deyib ki, hazırda rayonun mərkəzi xəstəxanasında tibb bacısı işləyir. Boş vaxtlarında rəsm çəkməyi sevir. Bu sərgidə həmin rəsm əsərləri ilə iştirak edir. O bildirib ki, belə sərgilərin keçirilməsi rayonun istedadlı qadınlarını daha da həvəsləndirir, onlara böyük stimul olur. Arzu Əsgərova bütün qadınlar adından yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib.

Sonra sərgi-satışa baxış olub. Sərgi-satışda rayon üzrə 35 qadının 430-dək əl işinin satışı təşkil edilib. Sulu və yağlı boya ilə işlənən tablolar, milli geyimlər, toxuculuq və bir-birindən maraqlı dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanıb.

Sərgi iştirakçısı Nazimə Seyidovanın dediklərindən:

– Uzun illərdir, toxuculuq sənəti ilə məşğul oluram. Birinci dəfədir ki, belə bir tədbirdə iştirak edirəm. Sevinirəm ki, əl işlərim geniş auditoriya qarşısına çıxıb. Bundan sonra bütün tədbirlərdə iştirak etməyi düşünürəm.

Qeyd edək ki, növbəti sərgi-satış Sədərək rayonunda təşkil olunacaq.

**Xəbərlər şöbəsi**

## Kənd yaşıl turizmi ilə bağlı növbəti maarifləndirici tədbir

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Kəngərli rayonunun Çalxanqala kəndində kənd yaşıl turizminin inkişaf etdirilməsi ilə bağlı maarifləndirici tədbir keçirilib. Qeyd edək ki, bundan əvvəl analoji tədbirlər muxtar respublikanın Kükü, Ərəfsə, Bist, Çənnəb, Gümüşlü, Tivi, Keçili, Gənzə kəndlərində təşkil edilib.***

Kənd sakinlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Məhərrəm Əliyev açıb. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin müdiri Piri Nağıyev "Kəngərli rayonunun Çalxanqala kəndinin turizm potensialı" mövzusunda çıxış edib. Tədbir iştirakçılarına kənd yaşıl turizmi haqqında ətraflı məlumat verilib və bildirilib ki, muxtar respublikada kənd turizmini inkişaf etdirmək üçün geniş imkanlar və şərait mövcuddur. Kəngərli rayonunun səfalı kəndlərində də belə imkanlar var.

Turizmin inkişafında vətəndaşların da üzərinə müəyyən vəzifələr düşdüyünü tədbir iştirakçılarının diqqətinə çatdıran Piri Nağıyev deyib ki, kənd turizmi bir çox hallarda daxili turizm növünə aid edilir.

Qeyd edilib ki, kənd turizmi üçün o qədər də güclü reklam və təşkilatçılıq tədbirlərinə ehtiyac duyulmur. Turistlər üçün lazım olan saf iqlim və su ehtiyatı, yaşıllıq, abad kənd şəraiti, insanı cəlb edən təbiət mənzərələri, şəhərdə olduğu kimi, burada da infrastrukturun yüksək səviyyədə olması və qonaqpərvərlik bu sahə üçün hazır ehtiyatlardır. Təcrübə göstərir ki, bir çox ölkələrdə turizmin inkişafı kənd yaşıl turizmi ilə başlayıb. Kənd yaşıl turizminin inkişafı yerli sakinlərin təşəbbüskarlığı və qonaqpərvərliyindən də asılıdır. Bu sahənin sosial inkişafın təmin edilməsində üstünlükləri çoxdur. Bunlardan əhalinin maddi rifahının yaxşılaşdırılması, kənd əhalisinin istehsal etdikləri məhsulların satışı, insanlar arasında ünsiyyət və yaxınlaşma, bölgənin adət-ənənəsi, məişətinin öyrənilməsi, təbliği və sairi qeyd etmək olar.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Ayaz Əliyev çıxışında bildirib ki, kənd turizminin inkişafı kəndlərin sosial-iqtisadi inkişafında, əhalinin iş yerləri ilə təminatında, ərazilərin təbii-iqtisadi potensialından səmərəli istifadə edilməsində əhəmiyyətli rol oynaya bilər.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova "Turizm İnformasiya Mərkəzinin kənd yaşıl turizminin təbliğində rolu" mövzusundakı çıxışında muxtar respublikanın kəndləri, təbii mənzərələri, tarixi abidələri və görməli yerləri haqqında danışıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Əli RZAYEV**

"Gülüş bəşəriyyətin ən böyük xeyir-duasıdır".
*Mark Tven*

# Gülüş sağlamlıqdır

***Gülüş insanın təbiətindən doğub; o, xalqın ruhundadır, qanındadır. Ustadların yaradıcılığına da xalqdan gəlib, onun folklorundan süzülüb. Usta sənətkar onu xalqdan alıb cilalayır və xalqın özünə qaytarır.***

Həqiqi gülüş ustasının komik sənəti mütərəqqi amallara səsləyən yenilməz bir qüvvədir. Gülüş heç vaxt irtica və geriliyə xidmət etməyib. Gülüş qammasının bir başında Füzuli "Şikayətnamə"sinin acı təbəssümü, digərində Mirzə Cəlil qəhqəhələri durur. "Acı gülüş", "dəhşətli gülüş", "qəzəbli gülüş", "şən gülüş və qəhqəhələr" kimi ifadələr gülüş qammasının müxtəlif təzahür hallarının estetik və filoloji ədəbiyyatda sabitləşmiş terminoloji ifadəçiləridir. Xalqımız satiraya, yumora əvəzedilməz tənqidi, ifşaedici, islahedici vasitə kimi yanaşıb, bu mövqe öz əksini xalq yaradıcılığının bir sıra sahələrində, o cümlədən folklorda tapıb. Atalar sözü və məsəllər, lətifələr, təmsil, bayatılar, meydan tamaşaları, xalq dramları, oyunlar, məzhəkələr, qaravəllilər, dastanlar, aşıq şeirlərində satirik nəsrin elementləri, dəyərli nümunələri var. Azərbaycanda bu janrda ən yaxşı əsərləri M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.Möcüz, C.Məmmədquluzadə, M.S.Ordubadi, M.Cəlal, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, S.Mümtaz, S.Rəhman, S.Qədirzadə, R.Əhmədzadə və başqaları yaratmışlar.

Təbiətdə Günəş, cəmiyyətdə isə gülüş və satira bir sıra mikrobların ən amansız düşmənidir. Dünya satira və yumorunun nəhəngləri Rable, Servantes, Svift, Qoqol, Çexov, Mark Tven, Ohenri, Əziz Nesin, Rıfat Ilqaz və onlarla başqaları real göstərdikləri həyatın mikroblarını öz satira günəşləri altında məhv etməmişdimi? Satiranı dünya ədəbiyyatında onlarla bərabər, Aristofan, Plavt, Bokkaro, Molyer, P.Bomarşe, B.Şou, H.Mann, B.Breat, İ.A.Krılov kimi yazarlar məşhurlaşdırmışlar.

"Satira şən və hazırcavab adamların qərəzsiz hırıltısı deyil, cəmiyyətdəki biabırçılıqdan özünü təhqir edilmiş sayan adamların alovlu, dəhşətli qəzəbidir". İlk yadıma düşən rus mütəfəkkiri V.Q.Belinskinin bu tərifi kifayət qədər dəqiq və tutumludur. Onun müasiri N.B.Qoqol bu fikri bir qədər də inkişaf etdirir: "Gülüş böyük məsələdir: o, nə adamın həyatına qəsd edir, nə də adına, lakin təqsirli şəxs onun qarşısında özünü əlqolu bağlı dovşan kimi hiss edir".

"Bəzi adamları güldürmək lazımdır ki, sizi boğazdan asmaq niyyətləri yaddan çıxsın". "Müqəddəsi başa düşmək üçün əvvəlcə şeytanın vəkilini dinləmək lazımdır". Bu kəlamlar isə görkəmli ingilis yumoristi Bernard Şouya məxsusdur.

İş-güc, məktəb, imtahanlar, ediləməsi lazım olan işlər, ailədaxili, iş yerindəki problemlərimiz, şəxsi həyatımızdakı eniş-yoxuşlar… Bunların hər biri pessimizmə ünvanlanan yollardır. Xoş əhvala, xoş ovqata o adamlar nail olur ki, ona can atırlar. Çox kasıb, xəstə və xəstəsi olan adamla rastlaşmışam ki, özünə təlqin etdiyi xoş ovqatla həyata daha çox bağlanıb. Onunla kəsdiyim pendir-çörəyin ləzzətini heç yerdə dada bilməmişəm. Çox imkanlı, həyatda uğur dalınca uğur qazanan, lakin sir-sifətlərindən zəhər yağan adamlarla cənnətməkanda quş südü düzülmüş süfrə arxasında oturmuşam. Görmüşəm ki, beləlləri ilə bal da yeyəndə zəhər olur.

Təbəssüm insanın dağ boyda dərdini bir saniyədə qaldırıb atmasına səbəb ola bilər. Onu sakitləşdirər, hüzur verə bilər. Yetər ki, bu, içdən gələn, səmimi, təmənnasız bir təbəssüm olsun. Danışarkən və dinləyərkən təbəssüm etməyi unutmayın. Əlbəttə ki, bunu yerinə görə etmək lazımdır. Biri çox ciddi mövzuda nə isə danışırsa, yaxud dərdini sizinlə bölüşürsə, bu təbəssüm kinayə və saymazlıqdan başqa heç bir şey olmaz. Təbəssüm süni olanda uzaqbaşı istehza etmiş olursan. Amma içdən gələndə həm sən xoşbəxt olursan, həm də başqaları.

Amma bütün bunların əvəzində bir təbəssüm bəxş etmək bu qədər çətindirmi? Bəs niyə bəzi insanların içindən təbəssüm etmək gəlmir, bilirsiniz? Çünki daxili dünyaları qap-qaradır. Biz otağın pərdəsini kənara çəkməsək, içəri o gözəl Günəşin şüaları düşməyəcək. Hər şey daxildən başlayır. Ürəyiniz gülürsə, üzünüzə təbəssüm kimi çökəcək. Şükür etmək, sahib olduqlarını yada salıb dünyanın ən xoşbəxt insanı kimi təbəssüm saçmaq çətin deyil. İnanın və şükür edin. Bunu edən bütün insanlar istisnasız olaraq uğur qazanıblar. Çünki həvəs var, təkan verən qüvvə var – özünəinam hissi var.

Robin Şarma "Ferrarisini satan müdrik" əsərində gülüşü belə dəyərləndirir: "Gülmək ruhun dərmanıdır. İçindən gəlməsə belə, bir aynaya bax və bir neçə dəqiqə gül. Özünü bəxtəvər hiss edəcəksən".

Gülsəniz dünya da gülər; ağlasanız təkbaşına ağlarsınız. Kədəri təklikdə keçirmək olar, amma sevinci tamamilə duymaq üçün onu başqa adamla bölüşmək lazımdır.

*Gülməyən insanın qarnı tox olsa belə, ruhu acdır.*

*Gülmək çörək, su, hava kimi vacib bir ehtiyacdır.*

Gülüş insana məxsus olan ən güclü silahdır; heç kim incə yumor həmləsinə duruş gətirə bilməz. Yumor istənilən ciddi vəziyyəti gülüş üçün zəminə çevirə bilir.

Gülüş xoş ovqatın rəhnidir. Ovqat yaxşı olanda işləmək də asan olur, çünki gülüş mənfi emosiyaları beyindən sıxıb çıxarır, müsbət yükü beyin bədəndə yeni güc axını yaradır. Ovqatı xoş insan istənilən problemin həllinə daha yaxındır, nəinki ovqatı təlx biri.

Qəzəb içində saxlandığı qabı aşındıran turşu kimidir. O, saxlandığı qaba töküldüyü qabdan daha çox zərər yetirir.

Sadəcə, bir günümüzdə bizi xoşbəxt edəcək o qədər çox detallar var ki, bir azca bunlara fikrimizi cəmləşdirməyimiz, bir azca kiçik nələrdənsə özümüzü xoşbəxt etməyimiz lazımdır. Xoş ovqat, gülüş həm də insanın sağlamlığına kifayət qədər müsbət təsir edəcək amillərdən biridir.

Həkimlərin qənaətinə görə, gülüşün insan sağlamlığında xüsusi rolu vardır. Bu amillər aşağıdakılardan ibarətdir:

*– Gülmək insanı stresdən, depressiyaya düşmək təhlükəsindən xilas edir;*

*– insan gülən zamanı orqanizmdə artıq kalorilər sərf olunur ki, bu da kökəlmənin, xüsusilə də piylənmənin qarşısını alır;*

*– dərinin tez qocalmaması üçün gülüş ən gözəl vasitədir. Belə ki, insan gülən zaman üz dərisində və qarın nahiyəsində əzələlər daim hərəkətdə olur. Daha dəqiq desək, əzələlərin gimnastikasına səbəb olur;*

*– beşdəqiqəlik sağlam gülüş 30-40 dəqiqə tam istirahəti əvəz edir;*

*– insan güldüyü zaman dərindən nəfəs alır ki, bu da ağciyərlərimizin fəaliyyətinə rahatlıq gətirir;*

*– insan gülən zaman qanda şəkərin səviyyəsi aşağı düşür. Odur ki, şəkərli diabetdən əziyyət çəkənlərə daha çox gülmək məsləhətdir;*

*– gülmək orqanizmin immun sistemini gücləndirir;*

*– qan təzyiqi olan insanlar on dəqiqə güləndən sonra təzyiqlərini ölçsələr, gülüşün xeyrini hiss edəcəklər;*

*– gülmək insan beyninin gərginliyini azaldır və zehni fəaliyyəti gücləndirir;*

*– ən başlıcası insan gülüşü ətrafdakı insanlara da xoş əhval bağışlayır.*

Təbii ki, düşünəcəksiniz, səbəb olmadan necə gülmək olar? Hər şeyə gülmək dəlilikdir, heç bir şeyə gülməmək isə səfehlik. İnsan güldüyü qədər insandır. Radi Fişə görə, "Ağlamaq köləliyin, gülmək özgürlüyün ifadəsidir".

Düşünün ki, gülməyimizə mane olan nədir? İlk növbədə, uzun-uzadı ürək üzən seriallardan, xoşagəlməz söhbətlərdən, sosial problemlər haqqında dərindən düşünməkdən uzaq olun. Gün ərzində sizə mənfi təsir göstərən növbələrin və sair bu kimi halların gərginliyini canınızdan çıxarmaq üçün komediya janrında filmlərə baxın, lətifələr oxuyun, əyləncəli jurnalları mütaliə edin, ən başlıcası isə doğmalarınızla zarafatlaşın. Bir də ən əsası odur ki, gülən zaman güzgüyə baxın. Onda əmin olacaqsınız ki, gülüş sizi nə qədər gözəl və nə qədər cazibədar göstərir. Odur ki, gülüş üzünüzdən əskik olmasın. Amma bir şərtlə. Özünüzü şit-şit gülməkdən və üzünüzə şit-şit gülənlərdən qoruyun.

Uilyam Ceyms "Bəxtəvər olduğumuz üçün gülməyək. Güldüyümüz üçün bəxtəvər olaq" – deyib. Bu məqsədlə günə kefini açan bir addımla başla. Gül, şənlən və sahib olduğun hər şey üçün şükür et. Görəcəksən, hər gün gözəl ərməğanlar gətirəcək. Gülməyin gücünü həmişə xatırla. Musiqi kimi o da həyatın stress və sıxıntılarına qarşı möcüzəvi bir üsuldur. Qəhqəhə ürəyinizi açar və ruhunuza sığal çəkər.

Balaca bir gülümsəmədir həyatın qırılmayan budağı! Və imtina etməmək lazımdır gülümsəməkdən. Nə bahasına olursa-olsun. Üzünüzdəki gözəlliyin xaricə vurmasıdır o! Və əslində, siz fikir vermədən də, başqalarının ağlının qapısını döyməkdən daxil olan dostunuzdur o! Bir balaca gülümsəyin, həyatınız dəyişsin! "Həmin o Münhauzen" filminin məşhurlaşmış ifadəsini yadınıza salıb "gülümsəyin cənablar, gülümsəyin!"

**Hüseyn ƏSGƏROV**

## Basketbolçuların birsaatlıq məşqi

### və ya əli topa dəyməyən uşaqlar

***İdman sağlam cəmiyyətin formalaşmasında mühüm rol oynayan sahədir. Naxçıvan Muxtar Respublikasında da bu sahənin uşaqlar, yeniyetmələr və gənclər arasında kütləvi hal alması üçün təqdirəlayiq işlər görülür. Elə il ərzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq keçirilən yarışlarda, turnirlərdə 10 minlərlə idmançı iştirak edir. Təbii ki, iştirakçıların hamısı peşəkar karyeraya sahib olmasa da, nazirlik ən azından onların sağlam fərd kimi böyüməsinə köməkliyini göstərir.***



Uşaq, yeniyetmə və gənclərin məşq proseslərinin daha düzgün, daha effektli alınması üçün hazırda muxtar respublikanın şəhər və rayonlarında idman zalları, eləcə də məktəb zalları fəaliyyət göstərir. Bunlardan istifadə isə idman federasiyalarının üzərinə düşən əsas vəzifələrdən biridir: baza dövlət tərəfindən yaradılır və federasiyalara idmançı yetişdirmək üçün verilir.

Rayonlarda bəzi federasiyaların bölmələrinin işinin hansı yerdə olduğu məlumdur: onların bəzilərinin varlığı formal xarakter daşısa da, bəzilərinin işi alqışlanasıdır. Demək olar ki, rayonlarda federasiyaların işi gənclər və idman idarələrinin üzərinə düşür. Onlar öz bazalarında idman növləri üzrə bölmələr açıblar ki, bu da daimi olaraq nazirliyin diqqət mərkəzindədir.

Rayonlarda mütəmadi olaraq iş görən, idmanın inkişafı, kütləvi hal alması üçün çalışan federasiyalardan biri də Basketbol Federasiyasıdır. Federasiya rayonlarda fəaliyyət göstərən bölmələrinə müəllimlər təyin edib, onların məşq proseslərini diqqətdə saxlayır. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının hazırda 10 oğlan, 2 qız qrupu fəaliyyət göstərir və qruplarda 200-dən çox basketbolçu bu idmanın sirlərini öyrənir. Rayonlardan fərqli olaraq, Naxçıvan şəhərində keçirilən məşqlər heç də qənaətbəxş deyil. Niyəsinə gəlincə...

Bu növə xüsusilə uşaqların maraq göstərməsi sevindirici haldır. Onların məşq zamanı canfəşanlığı, əylənməsi diqqətdən yayınmır. Məşqçinin işini isə xüsusi qeyd etmək lazımdır: onun uşaqların hər birinə ayrılıqda diqqət göstərməsi, məşqlərdə diqqətcil olması alqışlayalıq haldır. Lakin işin əsas məsələsi məşq saatlarının az olmasıdır. Belə ki, federasiyanın şəhər bölməsinin məşqini izləyərkən bir nüans diqqətimizi cəlb etdi. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən məşqdə 40-50 uşaq bu növlə məşğul olurdu. Ancaq onların məşq vaxtı cəmi 1 saatdır. Valideynlər bildirdilər ki, uşaqlar həftədə iki dəfə – I və V günlər məşq edirlər və elə olur ki, onların əlləri topa dəymir. 40-50 uşaq 1 saat ərzindəki məşqdən nə öyrənəcək? Dünya praktikasında kollektiv idman növləri ilə keçirilən məşqlərin həftəlik saatı yaş fərqinə görə 15-28 saat arasında dəyişir. Basketbol məşqlərini keçmək üçün isə muxtar respublikanın bütün məktəblərində zallar fəaliyyət göstərir. Ən azından federasiya hər hansı məktəbə müraciət edərsə, yəqin ki, "yox" cavabı almaz.

Məsələyə münasibət bildirmək üçün federasiyanın sədr müavini Ənvər Məmmədovun fikirlərini öyrəndik. Qurum rəsmisi bildirdi ki, hazırda məşqlər İlham Əliyev adına Olimpiya-İdman Kompleksində həftədə iki dəfə aparılır. Sentyabrdan isə ötən dərs ilində olduğu kimi, "Naxçıvan" Universitetinin idman zalında da məşqlərə start veriləcək. Yəni həm universitetin, həm də kompleksin zalında məşqlər keçiriləcək. Məktəblərə məşq keçmək üçün müraciət etməmişik. Çünki zallarda digər məşqlər keçirilir və yaxud məktəb müəllimlərinin dərsləri olur.

Bəs müraciət olunarsa, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi buna hansı cavabı verəcək? Nazirliyin əməkdaşı Rasim Rüstəmov bildirdi ki, federasiya bu barədə onlara müraciət etməyib. Əgər belə bir müraciət olunarsa, təbii ki, buna nazirliyin cavabı müsbət olacaq. Naxçıvanda fəaliyyət göstərən bütün məktəblərimizin idman zalları var və basketbol məşqləri üçün də əlverişlidir. Müəllimlərin dərsləri ilə üst-üstə düşə bilər məsələsinə gəlincə, federasiyalar bizə müraciət edərsə, tətil və ya tədris vaxtı onların məşq etmələri üçün nazirlik hər hansısa bir məktəbin idman zalında şərait yaradar. Tətillərdə isə nazirlik uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların idmana cəlbi yönündə müxtəlif işlər görür, Uşaq-gənclər idman məktəbləri federasiyalarla birgə tədbirlər təşkil edir.

Göründüyü kimi, federasiyadan müraciət olunmayıb. Ona görə də bəzi federasiyalar valideynlərin haqlı iradlarını qəbul etməlidirlər.

## "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yarış keçirilib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında "Naxçıvan" və "Şahbuz" komandaları arasında boks üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, bu yarışı keçirməkdə məqsəd yeniyetmə və gəncləri idmana cəlb etməkdən ibarətdir.

Sonra Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev yarışın qaydaları haqqında idmançılara məlumat verərək onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yoldaşlıq görüşündə 13 çəki dərəcəsində 30-a yaxın dəri əlcək sahibi mübarizə aparıb. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən görüşdə "Naxçıvan" komandası 8:5 hesabı ilə qalib gəlib.

Sonda hər iki komandada fərqlənən idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 602